Braziliyanın Belem şəhərində keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 30-cu sessiyasında (COP30) Azərbaycan və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) tərəfindən COP29-da irəli sürülən iqlim savadlılığının qlobal təhsil gündəminə inteqrasiyası, Beynəlxalq Şagird Qiymətləndirmə Proqramı (PISA) vasitəsilə iqlim savadlılığının ölçülməsinə dair təşəbbüsünə dair son bir ildə görülən işlərin nəticələri müzakirə olunub.

Konfrans çərçivəsində təşkil olunmuş “Təhsilin yaşıllaşdırılması" mövzusunda yüksək səviyyəli "dəyirmi masa”da aparılan müzakirələr zamanı ölkəmizi təmsil edən nümayəndə heyəti tərəfindən təşəbbüsün əhəmiyyəti, görülmüş işlər və planlaşdırılan fəaliyyətlər barədə məlumat verilib.

Qeyd edilib ki, Azərbaycan tarixi bir addım ataraq beynəlxalq təhsil siyasətini yenidən formalaşdırmağa və iqlim savadlılığını gələcək nəsillərin qarşıdakı çağırışlara hazırlanmasının əsas komponentinə çevirməyə müvəffəq olub. Sözügedən təşəbbüs bu gün iqlim savadlılığının PISA-ya (Şagirdlərin Qiymətləndirilməsi üzrə Beynəlxalq Proqram) inteqrasiyası, onun milli kurikulumlara daxil edilməsi kimi addımları əhatə edən qlobal bir hərəkat halını alır. Təşəbbüsün məqsədi gənclərin iqlim proseslərini başa düşən, sübutlara əsaslanan qərarlar verən və iqlim fəaliyyətinə fəal qoşulan nəsil kimi yetişdirilməsidir.

Azərbaycanın bu təşəbbüsü çərçivəsində ötən bir il ərzində PISA İqlim Savadlılığı Çərçivəsi hazırlanıb, eləcə də həm Azərbaycan, həm də Braziliyada iqlim savadlılığı ilə bağlı pilot qiymətləndirmə keçirilib, dünyanın müxtəlif ölkələri kurikulumlarını, müəllim hazırlığı proqramlarını və siyasət prioritetlərini uyğunlaşdırmağa başlayıblar.

Konfrans çərçivəsində səsləndirilən fikirlərə əsasən iqlim savadlılığının PISA-ya daxil edilməsi qlobal təhsil sistemləri üçün dərin təsirlərə malikdir. PISA milli islahatların əsas hərəkətverici qüvvələrindən biridir və iqlim savadlılığı onun qiymətləndirmə çərçivəsinin bir hissəsinə çevrildikdə ölkələr təbii olaraq siyasətlərini bu yeni prioritetə uyğunlaşdırmağa başlayacaqlar. Hökumətlər iqlim mövzularını, sistemli düşünmə bacarıqlarını və fəaliyyət yönümlü yanaşmaları yalnız təbiət elmlərində deyil, həm də riyaziyyat, oxu bacarığı, media savadlılığı və hətta süni intellekt savadlılığı sahələrində milli kurikulumlarına inteqrasiya edəcəklər. Bu dəyişiklik şagirdlərin iqlim sistemlərini başa düşməsi, məlumatı tənqidi şəkildə qiymətləndirməsi və iqlim fəaliyyətində mənalı şəkildə iştirak edə bilməsi ilə bağlı yeni müzakirələrə təkan verəcək. Beynəlxalq göstəricinin formalaşması ilə təhsil nazirlikləri siyasət strategiyalarını müəyyənləşdirə, nəticə boşluqlarını aşkar edə və şagirdləri dayanıqlı gələcəyə hazırlayan islahatlar apara biləcəklər.

Təşəbbüs təkcə qiymətləndirmə ilə məhdudlaşmır. Qiymətləndirmə alətinin hazırlanması ilə paralel olaraq Azərbaycan və İƏİT müəllimlərin iqlim savadlılığını tədrisə inteqrasiya etməsinə dəstək olacaq hərtərəfli resursların yaradılmasını hədəfləyir.

Konfrans çərçivəsində Azərbaycanın qlobal təhsil siyasətinə təsir göstərən tarixi bir addım atması və iqlim savadlılığının formalaşdırılması üzrə qurduğu əməkdaşlıq modelinin dünya ölkələri üçün nümunəyə çevrildiyi xüsusi diqqətə çatdırılıb.